**Azərbaycan Respublikasının *Avropa İttifaqı ilə əməkdaşlığı* üzrə Dövlət Komissiyasının yaradılması haqqında**[1]

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının Avropa İttifaqının "Avropa Qonşuluq Siyasəti"nə daxil olması və Azərbaycan üzrə Fəaliyyət Planının işlənib hazırlanmasına dair Avropa İttifaqı Şurasının müsbət qərarının qəbul edilməsi nəticəsində Azərbaycan Respublikasının Avropaya inteqrasiyasının keyfiyyətcə yeni mərhələyə keçdiyini nəzərə alaraq, Azərbaycan Respublikasının Avropa İttifaqı ilə əlaqələrinin daha da gücləndirilməsi, Avropa İttifaqının Azərbaycan üzrə Fəaliyyət Planının hazırlanması və həyata keçirilməsi üzrə səmərəli və əlaqələndirilmiş işin təmin edilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının *Avropa İttifaqı ilə əməkdaşlığı* üzrə Dövlət Komissiyası aşağıdakı tərkibdə yaradılsın:[2]

***Komissiyanın sədri***[3]

*Şahin Mustafayev – Azərbaycan Respublikası Baş Nazirinin müavini*

***Komissiyanın üzvləri***

*Azərbaycan–Avropa İttifaqı Parlament Əməkdaşlıq Komitəsinin həmsədri*
*Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri*
*Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri*
*Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri*
*Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri*
*Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin birinci müavini*
*Azərbaycan Respublikası Daxili İşlər nazirinin birinci müavini*
*Azərbaycan Respublikası Fövqəladə Hallar nazirinin birinci müavini*
*Azərbaycan Respublikası Maliyyə nazirinin birinci müavini*
*Azərbaycan Respublikası Mədəniyyət nazirinin birinci müavini*
*Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini*
*Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavini*
*Azərbaycan Respublikası İqtisadiyyat nazirinin müavini*
*Azərbaycan Respublikası Energetika nazirinin müavini*
*Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini*
*Azərbaycan Respublikası Səhiyyə nazirinin müavini*
*Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini*
*Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər nazirinin müavini*
*Azərbaycan Respublikası Gənclər və İdman nazirinin müavini*
*Azərbaycan Respublikası Təhsil nazirinin müavini*
*Azərbaycan Respublikası Kənd Təsərrüfatı nazirinin müavini*
*Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri*
*Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri*
*Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri*
*Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri*
*Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri*
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədrinin birinci müavini*
*Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi*
*Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisinin müavini*
*Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisinin müavini*
*Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri*
*Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri*
*Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri*
*Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini*
*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti*
*Azərbaycan Milli Elmlər Akademiyasının birinci vitse-prezidenti*
*Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri*
*Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (ombudsman)*
*Azərbaycan Respublikasının Avropa İttifaqı yanında Nümayəndəliyinin başçısı*
*Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri.*

2. Dövlət Komissiyasına tapşırılsın ki:

2.1. Avropa İttifaqı ilə siyasi, iqtisadi, nəqliyyat və enerji, hüquqi, təhlükəsizlik, insan hüquqları və demokratikləşdirmə, humanitar, elm-təhsil və digər əməkdaşlıq sahələri üzrə işçi qrupların yaradılmasına dair təklifləri 1 ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. görülmüş işlər barəsində mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Dövlət Komissiyasının fəaliyyətinin Avropa İttifaqı ilə əlaqələndirilməsi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə həvalə edilsin və bu məqsədlə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində müvafiq qurum yaradılsın.

4. "Avropa İttifaqı ilə tərəfdaşlıq və əməkdaşlıq üzrə Dövlət Komissiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 23 noyabr tarixli 272 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, 11, maddə 646; 2002-ci il, 6, maddə 348, 7, maddə 425) qüvvədən düşmüş hesab edilsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

6. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 iyun 2005-ci il
834

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 3 iyul 2006-cı il tarixli 424 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 7, maddə 588**)
2. 27 sentyabr 2006-cı il tarixli 466 nömrəli Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 9, maddə 743** )
3. 22 may 2007-ci il tarixli 577 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 5, maddə 459**)
4. 3 aprel 2009-cu il tarixli 216 nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 04, maddə 233)**
5. 10 fevral 2010-cu il tarixli **216** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 11 fevral 2010-cu il, 32, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 2, maddə 80)**
6. 14 iyul 2010-cu il tarixli **301** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 15 iyul 2010-cu il, 150, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 07, maddə 620)**
7. 13 dekabr 2012-ci il tarixli **2597** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 12, maddə 1291**)
8. 7 mart 2013-cü il tarixli **2786** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 03, maddə 292)**
9. 10 fevral 2014-cü il tarixli **105** nömrəli Azərbaycan Respublikasının Fərmanı (**"Respublika" qəzeti, 12 fevral 2014-cü il, 30 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 112**)
10. 14 may 2014-cü il tarixli **164** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 16 may 2014-cü il, 101)**
11. 21 noyabr 2014-cü il tarixli **374** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 11, maddə 1414)**
12. 31 avqust 2015-ci il tarixli **1382** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 8, maddə 957)**
13. 20 may 2016-cı il tarixli **900** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 22 may 2016-cı il, 110 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 5, maddə 861)**
14. 07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Respublika" qəzeti, 09 sentyabr 2016-cı il, 198 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518)**
15. 29 noyabr 2017-ci il tarixli **3415** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Xalq" qəzeti, 30 noyabr 2017-ci il, 264, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11, maddə 2124 )**
16. 1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677)**
17. 1 avqust 2018-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1715)**
18. 15 fevral 2019-cu il tarixli **964** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Xalq" qəzeti, 16 fevral 2019-cu il, 38, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 2, maddə 294)**
19. 11 fevral 2020-ci il tarixli **1807** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Xalq" qəzeti, 12 fevral 2020-ci il, 31, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 2, maddə 123)**

## SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

-

[1] 31 avqust 2015-ci il tarixli **1382** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **(Azərbaycan Respublikasının Qanunvericilik**

**Toplusu, 2015-ci il, 8, maddə 957**) ilə adında və 1-ci hissəsində "**Avropaya inteqrasiyası**" sözləri "**Avropa İttifaqı ilə əməkdaşlığı**" sözləri ilə əvəz edilmişdir.

[2] 13 dekabr 2012-ci il tarixli **2597** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 12, maddə 1291**) ilə 1-ci hissəsi ilə yaradılmış Azərbaycan Respublikasının Avropaya inteqrasiyası üzrə Dövlət Komissiyasının tərkibi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

| | |
|---|---|
| | ~~**Komissiyanın sədri**~~ |
| ~~Abid **Şərifov**~~ | ~~- Azərbaycan Respublikası Baş nazirinin müavini~~ |
| | ~~**Komissiyanın sədr müavinləri:**~~ |
| ~~Elmar **Məmmədyarov**~~ | ~~- Azərbaycan Respublikasının xarici işlər naziri~~ |
| ~~Şahin **Mustafayev**~~ | ~~- Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri~~ [2] |
| | ~~**Komissiyanın üzvləri:**~~ |
| ~~Əli **Əsədov**~~ | ~~- Azərbaycan Respublikası Prezidentinin köməkçisi~~ |
| ~~Fatma **Abdullazadə**~~ | ~~- Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Humanitar siyasət şöbəsinin müdiri~~ |
| ~~Şahin **Əliyev**~~ | ~~- Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri~~ |
| ~~Fuad **Ələsgərov**~~ | ~~- Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri~~ |
| ~~Novruz **Məmmədov**~~ | ~~- Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Xarici əlaqələr şöbəsinin müdiri~~ |
| ~~Əli **Həsənov**~~ | ~~- Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının İctimai-siyasi şöbəsinin müdiri~~ |
| ~~Mail **Rəhimov**~~ | ~~- Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının İqtisadi siyasət şöbəsinin müdiri~~ |
| ~~Ramil **Usubov**~~ | ~~Azərbaycan Respublikasının daxili işlər naziri~~ |
| ~~Eldar **Mahmudov**~~ | ~~Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri~~ |
| ~~Zakir **Qaralov**~~ | ~~Azərbaycan Respublikasının Baş prokuroru~~ |
| ~~Fikrət **Məmmədov**~~ | ~~Azərbaycan Respublikasının ədliyyə naziri~~ |
| ~~Ziya **Məmmədov**~~ | ~~Azərbaycan Respublikasının nəqliyyat naziri~~ |
| ~~Misir **Mərdanov**~~ | ~~Azərbaycan Respublikasının təhsil naziri~~ |
| ~~Məcid **Kərimov**~~ | ~~Azərbaycan Respublikasının sənaye və energetika naziri~~ |
| ~~İsmət **Abbasov**~~ | ~~Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri~~ |
| ~~Əli **Nağıyev**~~ | ~~Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri~~ |
| ~~Əli **Abbasov**~~ | ~~Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri~~ |
| ~~Əbülfəs **Qarayev**~~ | ~~Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri~~ [2] |
| ~~Samir **Şərifov**~~ | ~~Azərbaycan Respublikasının maliyyə naziri~~ [2] |
| ~~Fazil **Məmmədov**~~ | ~~Azərbaycan Respublikasının vergilər naziri~~ |
| ~~Hüseynqulu **Bağırov**~~ | ~~Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri~~ |
| ~~Elmira **Süleymanova**~~ | ~~Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman)~~ |
| ~~Kəmalləddin **Heydərov**~~ | ~~Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri~~ |
| ~~Elçin **Quliyev**~~ | ~~Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi~~ |
| ~~Hicran **Hüseynova**~~ | ~~Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri~~ |
| ~~Rafiq **Əliyev**~~ | ~~Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri~~ |
| ~~Arif **Vəliyev**~~ | ~~Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin sədri~~ |
| ~~Elman **Rüstəmov**~~ | ~~Azərbaycan Respublikası Mərkəzi Bankının sədri~~ |
| ~~Sahib **Rəhimov**~~ | ~~Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini~~ |

10 fevral 2014-cü il tarixli **105** nömrəli Azərbaycan Respublikasının Fərmanı (**"Respublika" qəzeti, 12 fevral 2014-cü il, 30 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 112**) ilə 1-ci hissəsində "**sənaye və energetika nazirinin müavini**" sözləri "**energetika nazirinin müavini**" sözləri ilə əvəz edilmişdir.

14 may 2014-cü il tarixli **164** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 16 may 2014-cü il, 101**) ilə 1-ci hissəsində "**iqtisadi inkişaf**" sözləri "**iqtisadiyyat və sənaye**" sözləri ilə əvəz edilmişdir.

20 may 2016-cı il tarixli **900** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 22 may 2016-cı il, 110 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 5, maddə 861**) ilə 1-ci hissəsindən "**və sənaye**" sözləri, habelə "**İskəndər Çəndirli - Azərbaycan Respublikasının Satınalmalar üzrə Dövlət Agentliyinin direktoru**" sözləri çıxarılmışdır.

7 mart 2013-cü il tarixli **2786** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 03, maddə 292**) ilə "**Novruz Məmmədov - Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin müavini** " sözlərindən sonra "**Valeh Ələsgərov - Avropa İttifaqı - Azərbaycan parlamentlərarası əməkdaşlıq komitəsinin həmsədri** " sözləri əlavə edilmişdir.

1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677**) ilə 1-ci hissəsində "**Rəfail Mirzəyev - Azərbaycan Respublikasının fövqəladə hallar nazirinin birinci müavini** " sözlərindən sonra "**Əli Abdullayev - Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini** " sözləri əlavə edilmişdir.

07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti, 09 sentyabr 2016-cı il, 198 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518**) ilə 1-ci hissəsinin "**daxili işlər nazirinin müavini**" sözləri "**daxili işlər nazirinin birinci müavini**" sözləri ilə, "**Əli Şəfiyev - Azərbaycan Respublikasının milli təhlükəsizlik nazirinin müavini** " sözləri "**Rauf Xələfov - Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Baş idarə rəisi**" sözləri ilə, "**Bəhram Əliyev**" sözləri "**İlham Quliyev**" sözləri ilə, "**İlqar Rəhimov**" sözləri "**Mətin Kərimli**" sözləri ilə, "**rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini** " sözləri "**rabitə və yüksək texnologiyalar nazirinin müavini**" sözləri ilə və "**Qulu Novruzov**" sözləri "**Ceyhun Bayramov**" sözləri ilə əvəz edilmişdir.

21 noyabr 2014-cü il tarixli **374** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 11, maddə 1414**) ilə 1-ci hissədə "**rabitə və informasiya texnologiyaları nazirinin müavini** " sözləri "**rabitə və yüksək**

**texnologiyalar nazirinin birinci müavini**" sözləri ilə əvəz edilmişdir.

1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677**) ilə 1-ci hissəsində "**İltimas Məmmədov - Azərbaycan Respublikası rabitə və yüksək texnologiyalar nazirinin müavini** " və "**Musa Pənahov - Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini** " sözləri çıxarılmışdır.

07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti, 09 sentyabr 2016-cı il, 198 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518**) ilə 1-ci hissədən "**İlqar Muradov – Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi sədrinin müavini**" sözləri çıxarılmışdır.

29 noyabr 2017-ci il tarixli **3415** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 30 noyabr 2017-ci il, 264, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11, maddə 2124** ) ilə 1-ci hissəyə "**Müəllif Hüquqları Agentliyinin** " sözlərindən sonra "**İdarə Heyətinin**" sözləri əlavə edilmişdir.

1 avqust 2018-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1715**) ilə 1-ci hissəsində "Müəllif Hüquqları" sözləri " **Əqli Mülkiyyət**" sözləri ilə əvəz edilmişdir.

7 mart 2013-cü il tarixli **2786** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 03, maddə 292**) ilə "**Kamran İmanov - Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin sədri**" sözlərindən sonra "**Fuad İsgəndərov - Azərbaycan Respublikasının Avropa İttifaqı yanında Nümayəndəliyin başçısı** " sözləri əlavə edilmişdir.

7 mart 2013-cü il tarixli **2786** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 03, maddə 292**) ilə "**Aydın Səfixanlı - Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının rəhbəri**" sözlərindən sonra "**Azay Quliyev - Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri**" sözləri əlavə edilmişdir.

[3] 15 fevral 2019-cu il tarixli **964** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 16 fevral 2019-cu il, 38, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 2, maddə 294**) ilə 1-ci hissə ilə yaradılmış Dövlət Komissiyasının tərkibi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

| | | |
|---|---|---|
| | | ~~**Komissiyanın sədri**~~ |
| ~~Şahin Mustafayev~~ | – | ~~Azərbaycan Respublikasının iqtisadiyyat naziri~~ |
| | | ~~**Komissiyanın üzvləri:**~~ |
| ~~Novruz Məmmədov~~ | – | ~~Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin müavini~~ |
| ~~Valeh Ələsgərov~~ | – | ~~Avropa İttifaqı - Azərbaycan parlamentlərarası əməkdaşlıq komitəsinin həmsədri~~ |
| ~~Şahin Əliyev~~ | – | ~~Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri~~ |
| ~~Fuad Ələsgərov~~ | – | ~~Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri~~ |
| ~~Rəfail Mirzəyev~~ | – | ~~Azərbaycan Respublikasının fövqəladə hallar nazirinin birinci müavini~~ |
| ~~*Əli Abdullayev*~~ | – | ~~*Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini*~~ |
| ~~Azər Bayramov~~ | – | ~~Azərbaycan Respublikasının maliyyə nazirinin müavini~~ |
| ~~Mahmud Məmməd-Quliyev~~ | – | ~~Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini~~ |
| ~~Vilayət Eyvazov~~ | – | ~~Azərbaycan Respublikasının *daxili işlər nazirinin birinci müavini*~~ |
| ~~*Rauf Xələfov*~~ | – | ~~*Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Baş idarə rəisi*~~ |
| ~~*İlham Quliyev*~~ | – | ~~Azərbaycan Respublikasının kənd təsərrüfatı nazirinin müavini~~ |
| ~~Elsevər Ağayev~~ | – | ~~Azərbaycan Respublikasının səhiyyə nazirinin müavini~~ |
| ~~Firdovsi Əliyev~~ | – | ~~Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər nazirinin müavini~~ |
| ~~*Mətin Kərimli*~~ | – | ~~Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini~~ |
| ~~*Ceyhun Bayramov*~~ | – | ~~Azərbaycan Respublikasının təhsil nazirinin müavini~~ |
| ~~Natiq Abbasov~~ | – | ~~Azərbaycan Respublikasının energetika nazirinin müavini~~ |
| ~~Sahib Ələkbərov~~ | – | ~~Azərbaycan Respublikasının vergilər nazirinin müavini~~ |
| ~~Sevda Məmmədəliyeva~~ | – | ~~Azərbaycan Respublikasının mədəniyyət və turizm nazirinin müavini~~ |
| ~~Toğrul Musayev~~ | – | ~~Azərbaycan Respublikasının ədliyyə nazirinin müavini~~ |
| ~~Namiq Əsgərov~~ | – | ~~Azərbaycan Respublikasının Baş prokurorunun müavini~~ |
| ~~Avtandil Babayev~~ | – | ~~Azərbaycan Respublikasının Mərkəzi Bankı sədrinin müavini~~ |
| ~~Aynur Sofiyeva~~ | – | ~~Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini~~ |
| ~~Əsgər Abdullayev~~ | – | ~~Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi sədrinin müavini~~ |
| ~~Gəray Fərhadov~~ | – | ~~Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini~~ |
| ~~Gündüz İsmayılov~~ | – | ~~Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini~~ |
| ~~Rauf Səlimov~~ | – | ~~Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi sədrinin müavini~~ |
| ~~Rüstəm Şahbazov~~ | – | ~~Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müavini~~ |
| ~~Fərhad Tağı-zadə~~ | – | ~~Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti rəisinin müavini~~ |
| ~~Pərviz Musayev~~ | – | ~~Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti rəisinin müavini~~ |
| ~~Kamran İmanov~~ | – | ~~Azərbaycan Respublikasının *Əqli Mülkiyyət* Agentliyinin *İdarə Heyətinin* sədri~~ |
| ~~Fuad İsgəndərov~~ | – | ~~Azərbaycan Respublikasının Avropa İttifaqı yanında Nümayəndəliyin başçısı~~ |

~~Aydın Səfixanlı~~ – ~~Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının rəhbəri~~

~~Azay Quliyev~~ – ~~Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri~~

11 fevral 2020-ci il tarixli **1807** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 12 fevral 2020-ci il, 31, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 2, maddə 123**) ilə 1-ci hissə ilə yaradılmış Dövlət Komissiyasının tərkibi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

***~~Komissiyanın sədri~~***

-

*~~Azərbaycan Respublikasının iqtisadiyyat naziri~~*

-

***~~Komissiyanın üzvləri~~***

-

*~~Avropa İttifaqı–Azərbaycan Parlamentlərarası Əməkdaşlıq Komitəsinin həmsədri~~*
*~~Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri~~*
*~~Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri~~*
*~~Azərbaycan Respublikası Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi–şöbə müdiri~~*
*~~Azərbaycan Respublikası Prezidentinin aqrar siyasət məsələləri üzrə köməkçisi–şöbə müdiri~~*
*~~Azərbaycan Respublikası fövqəladə hallar nazirinin birinci müavini~~*
*~~Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini~~*
*~~Azərbaycan Respublikası maliyyə nazirinin müavini~~*
*~~Azərbaycan Respublikası xarici işlər nazirinin müavini~~*
*~~Azərbaycan Respublikası daxili işlər nazirinin birinci müavini~~*
*~~Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini~~*
*~~Azərbaycan Respublikası səhiyyə nazirinin müavini~~*
*~~Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini~~*
*~~Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini~~*
*~~Azərbaycan Respublikası təhsil nazirinin müavini~~*
*~~Azərbaycan Respublikası energetika nazirinin müavini~~*
*~~Azərbaycan Respublikası vergilər nazirinin müavini~~*
*~~Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini~~*
*~~Azərbaycan Respublikası ədliyyə nazirinin müavini~~*
*~~Azərbaycan Respublikası Baş prokurorunun müavini~~*
*~~Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini~~*
*~~Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi sədrinin müavini~~*
*~~Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini~~*
*~~Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini~~*
*~~Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi sədrinin müavini~~*
*~~Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müavini~~*
*~~Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti rəisinin müavini~~*
*~~Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti rəisinin müavini~~*
*~~Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi sədrinin müavini~~*
*~~Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini~~*
*~~Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri~~*
*~~Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkilinin (ombudsmanın) Aparatının rəhbəri~~*
*~~Azərbaycan Respublikasının Avropa İttifaqı yanında Nümayəndəliyinin başçısı~~*
*~~Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Baş idarə rəisi~~*
*~~Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri.~~*